# İnamımız – Xilasımız

Bu gün dünyada  xalqımıza, bütövlükdə bəşəriyyətə barmaq silkələyən, mədəniyyətlərin vəhdəti adı altında öz oyunlarını sırıyan Qloballaşma prosesini müşahidə edirik. Bu çox  yeknəsəq, mürtəce bir oyundur.

Əli hər tərəfdən  – yerdən, göydən üzülən, həm də özü-özündən üzülməkdə olan xalqımıza və ümumiyyətlə bəşəriyyətə Yeni Dünyabaxış, Yeni İnsani Təlim, bir sözlə, Yeni İnam veririk. Mövcud təlimlərin heç birində özünü tapmayan, İnamsızlaşan xalqımız çox acınacaqlı durumdadır. Ona görə Yeni İnama doğmalaşmaq qaçılmazdır.

Mütləqə İnam Peyğəmbəri Asif Ata xilasımızın ruhani üfüqləridir.

İnsanı ucaldan, həqiqətlə bir edən İnam. O, Mütləqə İnam adlanır.

"Mütləq – Əzəli, Əbədi, Sonsuz, Kamil Mənadır, Mahiyyətdir. O, Dünyanın, Həyatın, İnsanın daxilində yaşayan Özümlükdür. Dünya, Həyat, İnsan Özündən, öz Mahiyyətindən yaranıb" deyir Peyğəmbərimiz. Dünya, Həyat, İnsan yaradılsaydı tükənərdi, sonu olardı.

Dünya, Həyat, İnsan idarə olunmur. Onun öz ahəngi, nizamı, gedişatı var. O, zahirdə pozula bilər, lakin daxildə mahiyyəti Mütləq olduğundan pozulmaz olaraq qalır. Asif Atanın yaratdığı bu İnamın canı İnsana İnamdır. Heç bir dində, heç bir fəlsəfədə Həqiqət bunca inamlı deyilməyib. İnsana layiq olduğu münasibəti ortaya qoyduğu üçün İnam uğrunda mübarizə bizi daim qanadlandırır.

İnsan dünyadakılardan fərqli olaraq, daxilində təkcə Mütləqi daşımır, həm də ifadə edir. Dünyanı, Həyatı mənalandırır. Dağda vüqar görür, çayın nəğməsini dinləyir. Sevir, sevilir, musiqi yaradır. Ailə qurur, qüdsiyyət yaradır, dostluq halı yaradır, özünü başqasında görür, Məcnunlaşır, Leylilənşir. Adilikdən, keçicilikdən uzaqlaşır, əbədiləşir.

Dinlərdə dünyanın sonundan cəfəngcəsinə danışılır. Ata İnamında bu kimi cəfəng fikirlər tamamilə inkar olunur – Dünyanın, Həyatın, İnsanın Əbədi, Əzəli, Sonsuz, Kamil Mənası olduğundan heç vaxt sonu olmayacaq. O, məhv edilə bilməz, dağılmaz. Məna dünyanı yox olmağa qoymaz.

Mütləqə İnamın öz meyarları var – "Yalnız Mütləq olan var olandır.

Nisbi Həqiqət yalandır.

Nisbi Xeyir Şərdir.

Nisbi Doğmalıq yadlıqdır.

Çünki

Nisbi Xeyir özündə Şər imkanı gəzdirir.

Nisbi Həqiqət özündə Yalan imkanı gəzdirir.

Nisbi Doğmalıq özündə Yadlıq imkanı gəzdirir" (Asif Ata).

Mütləqə İnam insanın Mütləqə yüksəlmək imkanını yaradır. Dünyadakı başqa canlılardan fərqli olaraq, yalnız insan öz həyatında köklü dəyişikliklər yarada bilər. İnsandan başqa heç bir canlı təbiət tərəfindən müəyyən olunmuş qanunauyğunluqdan kənara çıxa bilmir.

Dünyaya qüsurlu gələn insan Ruh vasitəsiylə dəyişilə bilir. O, bununla başqa canlılardan fərqlənir. Ruh insanda Mütləqin ifadəsidir. O, Ruh vasitəsiylə həyatını dəyişir, –

"Ruh vasitəsiylə səs musiqiləşir, söz şeirləşir, daş heykəlləşir".

Ruh vasitəsiylə insan öz insani mahiyyətinə qovuşur.

Bunlar Ruhani İntibahın  birinci ideyasını – ***"Mütləqə İnam"ı*** əks etdirir.

İkinci ideya ***"Kamil İnsan"***dır. Bu ideyada əsas leytmotiv "İnsanlaşma – İnsanlaşdırmadır".

Mütləqimiz Asif Ata İnsana belə bir tərif verir:

"İnsan Ozündə Mütləqilik gəzdirən, bu səbəbdən də şəraitdən, mühitdən, cəmiyyətdən üstün olan, Mütləqiliyə meyil eləyən və Mütləqləşməyə qadir olan Ruhani varlıqdır". Bu tərifdən görünür ki, İnsan özünə, öz əzəli mahiyyətinə çatmaq üçün doğulur. O, dünyaya kamil gəlmir. Onun daxilində nisbilik, naqislik, qeyri-kamillik də var. İnsan özünü aşkarlamalıdır.

Özündəki naqisliklərdən arınmalıdır. Lakin həyat, cəmiyyət bu imkanı qismən onun əlindən alır. Özüylə məşğul olmağa çox vaxt meyli, həvəsi olmur. Bununla belə insanın özünü aşkarlaması, tanıması, naqisliklərdən imtinası onun İnsanilik borcudur, başqa sözlə, daxili tələbidir.

Ömrü güzərançılıqdan, məişətçilikdən, faydaçılıqdan alıb İnam, İdrak, Mənəviyyat, İradə əsasında – Ruhaniyyat əsasında yenidən qurmaq tələb olunur.

Öz daxilindən eybəcərliyi silən insan özüylə doğmalaşır və kamilləşir.

Kamil İnsan İnam, İdrak, Mənəviyyat, İradə Mütləqiliyinə çatır. İnamın meyarı Mütləqilik, İdrakın meyarı Həqiqət, Mənəviyyatın meyarı Vicdan, İradənin meyarı zamandan, mühitdən, şəraitdən üstünlük demək olur.

Ruhani İntibahın üçüncü ideyası **“Müstəqil Vətən”**dir. Asif Ata müstəqilliyi aşağıdakı kimi şərtləndirir:

“Dünyadan asılı olmadığın dərəcədə müstəqilsən.

Dünyaya gərək olduğun dərəcədə müstəqilsən.

İnsanlaşdığın dərəcədə müstəqilsən.

Özgələrdən asılı olmadığın dərəcədə müstəqilsən...

Bu baxımdan bugünkü müstəqilliyimiz formal müstəqillikdir.

Əgər Azərbaycan respublikalar birliyindən çıxmayacaqsa, Qərb dairəsindən çıxmayacaqsa, İslam dairəsindən çıxmayacaqsa, Güney Azərbaycanla birləşməyəcəksə heç bir müstəqillikdən söhbət gedə bilməz”. Asif Ata Güney Azərbaycanla birləşməni vətənin siyasi müstəqilliyinin əsası hesab edir. Qafqaz regionunda 30 milyonluq bir xalqa münasibət, 8 milyonluq xalqa olan münasibətdən qat-qat fərqli olacaq, durum dəyişiləcək, deyir.

Dördüncü ideya **“Ruhani Cəmiyyət”** ideyasıdır.

Asif Ata heç bir ideologiyanı qəbul etməyib. O, hesab edir ki, həm sosializm, həm kapitalizm bir cəhətdə birləşirdilər. Hər ikisində İnsan cəmiyyətin alətinə çevrilirdi. Sosializmdən kapitalizmə qayıdış əslində geriləmə idi. XX əsrdə bütün qabaqcıl ideyalar iflasa uğradı. Bu səbəbdən də İnsani qanunlara söykənən bir cəmiyyət yaranmalıdır və öz prinsipləri ilə yaşamalıdır:

1. Fərdi özünüidarə: – Burada insan cəmiyyətdən asılı olmur. Öz ağlı, düşüncəsi əsasında yaşayır. Öz etiqadının sahibi olur. Özünü könüllü surətdə cəmiyyətin inkişafına həsr edir.

2. Mülkiyyət bərabərliyi: – Ruhani cəmiyyətdə Mülkiyyətə sahiblik əməkçinin tam hüququdur. İndiyədək mövcud olan cəmiyyətlərdə mülkiyyətdən ən az bəhrələnən əməkçi olub. Mülkiyyət ya mülkədarın, ya dövlətin, ya kapitalistin əlində olub. Bunun nəticəsi də cəmiyyətdə təbəqələşmə hadisəsi yaratdı. Mülkiyyət bərabərliyinin yaranması təbəqələşmənin ləğvini təmin edəcəkdir.

3. İmtiyaz bərabərliyi: – Qabiliyyətindən, ixtisas üstünlüyündən asılı olaraq cəmiyyətlərin formalaşması gedişatını Ata rədd edir.

İnsanın yalnız bir üstünlüyü ola bilər – o, Ruhani-İnsani üstünlükdür. Mənəviyyat əsasında yaşayan İnsanın maddi üstünlüyə ehtiyacı yoxdur.

4. Minimal iqtisadiyyat: – Yalnız iqtisadiyyata həsr olunan cəmiyyət antiinsani cəmiyyətdir, deyir Mütləqimiz. İqtisadiyyat hər şey olan cəmiyyətdə əxlaq pozulur, kamillik, insanilik əsas sayılmır. İnsan iqtisadiyyat aləti kimi qiymətləndirilir. “Minimal iqtisadiyyatla yetərlənməli, maksimal ləyaqətə yetməli” – deyir Mütləqimiz Asif Ata.

5. Minimal Əmək: – Ömrünü başdan-başa iqtisadiyyata həsr edənin Ruhaniyyata vaxtı qalmaz. Halbuki hər kəsin özüylə məşğul olmağa ehtiyacı var. İqtisadiyyat Mənəviyyata bərabər ola biməz. Ruhani Cəmiyyət ideyası minimal əməyə əsaslanır. Əməyi insana tabe edir, – İnsaniləşdirir.

6. Ruhani Dövlət: – Xalq üzərində ağalıq yox, ona Atalıq gərəkdir. Ruhani Dövlət müstəqil fərdlərdən xalq yaradır və onu təmsil edir.

Asif Ata sinfi, silki ziddiyyətlərin aradan qalxmasında görür Xəlqi Birliyin əsasını.

Ümumi etiqad, İnam birliyi, düşüncə-fikir birliyi, adət-ənənə birliyi, dil birliyi əsasında yaranır Ruhani Birlik!

Dövlətin başında ən kamil şəxs durur – ən çox özündən keçən, öz balaca mənindən əl çəkən, zor səlahiyyətindən mütləq imtina edən, imtiyazsız, varidatsız şəxs.

**“Özümlü Şərq”** beşinci ideyasıdır Ruhani İntibahın.

Qərbin ağalıq iddiasından doğan fikir Dünyanı Şərqə və Qərbə böldü.

“Mədəniyyətin, inkişaf adına olanların mayası Qərbdədir” yalanı yeridi ağıllara. “Avropa-mərkəzçilik” deyilən bir cərəyan dünya mədəniyyətinin beşiyi olan Şərqə bu yalanı təlqin eləyə bildi. Şərq isə bununla barışdı. Bu işdə İslam Qərbin köməkçisi oldu. Şərq tərəqqidən qaldı. Asif Ata deyir: “İslam Şərqin belini əyməsəydi, Qərb onun belini qıra bilməzdi. Neçə əsrdir ki, Şərq heç nə yaratmır. Hər şey üçün Qərbə üz tutur”.

Mütləqə İnam Peyğəmbəri “Özümlü Şərq” ideyası ilə Şərqi əzəli mahiyyətinə qaytarmaq məqsədi daşıyır. Və bütün dünya üçün “Özümlü Şərq” ideyasını xilas kimi qiymətləndirir.

**“Ləyaqətli Bəşər”** ideyası altıncı ideyadır. Bu ideya həm də nəticədir.

Müqəddəs Atamız bəşərin bugünkü böhranlı dövrünə səbəb üç amili göstərir: – Zorakılıq, əxlaqsızlıq, maddiyyatçılıq. Bəşər mənən öldükcə özünün cismani ölümünə yaxınlaşır. Ruhsuzluq fəlakətinə son qoymaq üçün bəşərin Ruhani ləyaqətə yetməsi gərəkdir.

Amalımız aydındır, Yolumuz müəyyəndir. Atamızın altı möhtəşəm ideyasının yayılmasına ömürlər tələb olunur. Bu bir nəslin başa gətirə biləcəyi iş olmadığı bəllidir.

Yol uzun, hədəf uzaq, ömür qısadır. Tələsmək olmaz, gecikməyi də özümüzə yasaq etmişik. Maneələri aşmaq gərəkdir.

Bütövlükdə bu işlərin görülməsində, bu Yolun gedilməsində çox önəmli olan “nədən güc almalı” fikrinə özüm üçün yetərli saydığım məqamları dilə gətirmək istəyirəm: Əvvəla, İnsana, İnsanlığa doğmalaşmaq və inanmaq. Dünyada elə bir adam tapmazsan ki, o desin ki, İnsanlıq gərəkli deyil. Naşı münasibətlər ola bilər. Müxtəlif duyğuların (paxıllıq, xudbinlik və s.) təsiri ilə yanaşmalar ola bilər. Ancaq bəşərin düşüncəli insanlarına İnamı vermək ləyaqəti var qarşıda. Bu böyük ləyaqətin tələbindən güc alıram. Fərəhim yerə-göyə sığmır.

Atamızın zamanında yaşamışam, 10 il müddətində onu dinləmişəm. Səcdəsində durmuşam, irad və təqdirlərini qəbul etmişəm. Məcnunum deyib, inanıb! Bu İnamdan güc almışam.

Hünərlər göstərmək eşqiylə əməllərdən yapışmışam. Örənqalada Atamızın möhtəşəm görüşünü təşkil etmişəm. Və bu görüşün sonunda fərəhlə “Ocağımızın “Bəstə-nigar” dövrü başlayır” deyib Mütləqimiz! Fərəhimdən uşaq kimi sevinmiş, sığmazlıq zirvəsinə boylanmışam. Amal Bağı yaratmışam, sonra büdrəmişəm. Soylu kimi hünərvərim, əzabkeş Yükümlümüz, Atanın ölümündən sonra Ocağın xilaskarı, səcdəyə layiq oğul əlimdən tutub qaldırıb. Onun varlığından güc almışam!

Nurtəkinin, Göylünün, Üstünün doğmalığı həyanım olub narahatlıqlarımı ötmüşəm, Ucatayın sevgi ilə inanması ümid verib yerişimə. Türkel və Ulunurun qoşa böyüməsi sevincimə işıq salır, təpərim artır. Ocağa yetkin münasibətlə gələn Ulusəs ağbirçəkliyi, 20 illik müşahidədən sonra yolumuzun ululuğunu dərk edən Uluyol – həm ruhən, həm cismən qardaşım Atanın Peyğəmbərliyini xalqa vermək gücümü artırır.

Ocaqsevər, Atasevər, Vətənsevər, Millətsevər Abil bəyin, Ağşın bəyin, Nəsibə ananın, Ayaz bəyin arxadağlığı da mübarizə mühitimi genişləndirir.

Harayımızı eşidib hay verən Tahir bəyin qeyrətini, ona söykək olan həyanlarımızı Ocağı yaşatmaq əzmimə dayaq kimi görürəm. Nəhayət ki, həqiqəti dərk edərək Elana adına yüksələn, mənimlə birlikdə təzyiqlərə sinə gərən həyat yoldaşımın söykəkliyi məni yeni hünərlərə səsləyir.

Sonda onu deməyi lazım bilirəm ki, siz ey Ata yoluna əngəl olmaq istəyənlər, bilin və agah olun, özünüzə, öz gələcəyinizə daş atırsınız. Tarixin alqış ünvanı olmaq imkanınız ola-ola lənət ünvanını seçirsiniz. Başıaşağı, suçlu gedirsiniz tarix səhifələrinə!

Siz ey atdığı addımların o qədər də fərqinə vara bilməyən, fitri qeyrət adamları – İbrahimlər, Sarvanlar, Fərhadlar, Adillər, İmanlar, Cabirlər, Elmanlar, Namiqlər, Kamillər, hər addımınız tarixin ilmələrinə çevriləcək, baş ucalığınız olacaqdır!

***Atamız var olsun!***

***Atamıza Səcdə ucalığında yaşayan Günev Atalı***

*23 Od Ayı, Qismət günü, 32-ci il.*
*Örənqala “İnam Evi”.*